Azərbaycan Respublikasının
Auditorlar Palatası

“ŞƏFFAFLIQ VƏ AUDİT: YENİ DÖVRÜN ÇAĞIRIŞLARI, PROBLEMLƏR, VƏZİFƏLƏR”
(BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANS)
Bakı, 16 sentyabr 2021-ci il

Azərbaycan İqtisadçılar
İttifaqı

“TRANSPARENCY AND AUDIT: CHALLENGES OF THE NEW AGE, PROBLEMS, TASKS”
(INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE)
Baku, September 16, 2021

T Ö V S İ Y Ə L Ə R

BAKI - 2021

"Azərbaycan dövləti dayanıqlı və sürətli inkişafın vacib amili kimi şəffaflığın artırılmasına, bu sahədə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərin tətbiqinə daim böyük önəm verir. İqtisadiyyatın bütün sahələrində korporativ idarəçilik prinsipləri geniş tətbiq edilmiş, informasiyanın əldə edilməsində açıqlıq artırılmış, ictimai iştirakçılıq genişləndirilmiş və vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlıq gücləndirilmişdir. Şəffaflığın ən yüksək səviyyədə təşviqi sahibkarlığın inkişafında, qeyri-neft sektoruna investisiya cəlbində və iqtisadiyyatın şaxələnməsində mühüm nəticələr vermişdir.

Ümidvaram ki, keçirilən Konfrans ölkə iqtisadiyyatının daha da şəffaflaşması, rəqabətin artması, dövlət vəsaitindən effektiv və təyinatına uyğun istifadə üzərində nəzarətin hərtərəfli gücləndirilməsi, dövlət və audit təsisatları arasında əməkdaşlığın dərinləşdirilməsi, auditin müstəqil nəzarət institutu kimi inkişaf etməsi və audit xidmətlərində rəqəmsallaşma işinə öz töhfəsini verəcək, bu sahədə mütərəqqi dünya təcrübəsinin öyrənilməsinə və tətbiqinə geniş imkanlar yaradacaqdır."

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

("Şəffaflıq və Audit: Yeni dövrün çağırışları,
problemlər, vəzifələr" mövzusunda beynəlxalq elmi-praktik konfransın
İştirakçılarına, 2021-ci il 15 sentyabr tarixli təbrik məktubundan)

I. Konfrans barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə 2021-ci il 16 sentyabr tarixində Auditorlar Palatası və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə Bakı şəhərində “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Konfransda 11 ölkənin (Azərbaycan, Avstriya, Belçika, Türkiyə, Özbəkistan, Rusiya Federasiyası, Latviya, Gürcüstan, Ukrayna, Makedoniya, Çernoqoriya) müvafiq audit və mühasibatlıq qurumlarını, beynəlxalq peşəkar təşkilatları, ölkəmizin dövlət və qeyri-hökumət təşkilatlarını, özəl sektoru, kütləvi-informasiya vasitələrini, ali təhsil və elmi-tədqiqat institutlarını təmsil edən 30-dan çox qurumdan 60-a yaxın nümayəndə iştirak etmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

“Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” Beynəlxalq Elmi-Praktik Konfransının iştirakçılarına

Hörmətli Konfrans iştirakçıları!

Sizi Auditorlar Palatasının 25 illik yubileyinə həsr olunmuş “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” mövzusunda beynəlxalq elmi-praktik konfransın işə başlaması münasibətilə təbrik edirəm.

Ötən illərdə ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi quruculuq işləri müstəqil Azərbaycan dövlətinin güclənməsi və ərazi bütövlüyünün bərpası üçün zəmin yaratmışdır. Sosial rifahın əsası olan iqtisadi sabitlik qorunmuş, qanunların aliliyi təmin edilmiş və işgüzar mühit davamlı yaxşılaşmışdır.

Azərbaycan dövləti dayanıqlı və sürətli inkişafın vacib amili kimi şəffaflığın artırılmasına, bu sahədə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərin tətbiqinə daim böyük önəm verir. İqtisadiyyatın bütün sahələrində korporativ idarəçilik prinsipləri geniş tətbiq edilmiş, informasiyanın əldə edilməsində açıqlıq artırılmış, ictimai iştirakçılıq genişləndirilmiş və vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlıq gücləndirilmişdir. Şəffaflığın ən yüksək səviyyədə təşviqi sahibkarlığın inkişafında, qeyri-neft sektoruna investisiya cəlbində və iqtisadiyyatın şaxələnməsində mühüm nəticələr vermişdir.

Artan şəffaflığın ölkə iqtisadiyyatı üçün mühümlüyünü nəzərə alaraq, Azərbaycanın bu sahədə qəbul edilmiş beynəlxalq prinsiplərə sadiqliyini və bütün səylərin davamlı dəstəklənəcəyini bir daha vurğulayıram.

Eyni zamanda, milli inkişaf prioritetləri və postpandemiya dövrünün çağırışları nəzərə alınmaqla həm dövlət sektorunda həm də özəl sektorda maliyyə nəzarətinin müasirliyi və təsirliliyinin artırılması üzrə bir sıra aktual məsələlər öz həllini gözləyir. Bu səbəbdən bizim üçün yeni strateji mərhələ yüksək şəffaflığa və güclü rəqabətə söykənən iqtisadi fəaliyyətin genişlənməsi ilə səciyyəvi olmalıdır. Konfransınızda da şəffaflığın artırılması, kölgə iqtisadiyyatına qarşı mübarizənin gücləndirilməsi, maliyyə nəzarətinin mütərəqqi təcrübəyə uyğunlaşdırılmaqla təsirliliyinin artırılması və digər aktual məsələlərin müzakirəsini təqdirəlayiq hesab edirəm.

Ümidvaram ki, keçirilən Konfrans ölkə iqtisadiyyatının daha da şəffaflaşması, rəqabətin artması, dövlət vəsaitindən effektiv və təyinatına uyğun istifadə üzərində nəzarətin hərtərəfli gücləndirilməsi, dövlət və audit təsisatları arasında əməkdaşlığın dərinləşdirilməsi, auditin müstəqil nəzarət institutu kimi inkişaf etməsi və audit xidmətlərində rəqəmsallaşma işinə öz töhfəsini verəcək, bu sahədə mütərəqqi dünya təcrübəsinin öyrənilməsinə və tətbiqinə geniş imkanlar yaradacaqdır.

Bir daha sizə və Konfransın işinə uğurlar arzulayıram.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası • Azərbaycan Respublikası Prezidentinin Administrasiyası

Sənəd dövriyyəsi şöbəsi

İlham Əliyev

Bakı şəhəri, “15” sentyabr 2021-ci il

№ 1/518

Beynəlxalq elmi-praktik konfransın iştirakçıları tərəfindən aşağıdakı məsələlər müzakirə edilmişdir:

- Şəffaflıq strategiyası və “kölgə iqtisadiyyatı” ilə mübarizə: Dövlət Vergi Xidmətinin əldə etdiyi nəticələr;
- COVİD-19 pandemiyasının kölgə iqtisadiyyatının həcminə təsirlərinin təhlili və onların minimuma endirilməsinə dair tədbirlər barədə;
- Böyük qayıdış dönəmində şəffaflıq;
- KOB-ların uçot və hesabatlılığının sadələşdirilməsi və təkmilləşdirilməsi imkanları;
- EFAA Böhran şəraitində kiçik və orta auditor təşkilatlarını dəstəkləyir və onları gələcəyə hazırlayır;
- Auditdə yeni texnologiyalar: informasiyanın etibarlılığı və təhlili;
- Korrupsiya və iqtisadi fəaliyyət sahəsində baş verən cinayətlərin qarşısının alınmasında auditin rolu;
- Şəffaflıq dayanıqlı iqtisadi inkişafın mühüm amili kimi;
- Enerji auditi və onun tətbiq effektivliyi;
- Avropa və MDB məkanında:
    - auditin inkişafında peşəkar cəmiyyətlərin rolu;
    - auditin keyfiyyətinə nəzarət: sistemli keçid;
    - auditor xidmətlərinin keyfiyyətinin yüksədilməsində Audit Məsləhət Şurasının rolu və töhfəsi;
    - korporativ hesabatlılığın gələcəyi və onun Azərbaycandakı şirkətlər üçün nəticələri;
    - mühasibat uçotu və auditdə şəffaflığın təmin edilməsinin və rəqəmsallaşmanın xüsusiyyətləri;
- Rəqəmsallaşmaya sürətli keçid;
- Rəqəmsallaşmanın mühasibat uçotu və auditə təsiri;

- Mühasibatlıq və auditor xidmətləri göstərən şəxslərin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə rolu;
- Mühasibat uçotu və audit: gələcəyə baxış;
- Rəqəmsal iqtisadiyyat şəraitində auditin təkmilləşdirilməsi istiqamətləri;
- Audit sanksiyası üzrə təcrübələrin müqayisəsi;
- Kiçik və inkişaf etməkdə olan iqtisadiyyatlarda Beynəlxalq Audit Standartlarından istifadənin üstünlükləri və zəif tərəfləri;
- Müasir dövrdə virtual aktivlərin dövriyyəsinin tənzimlənməsinin bəzi aspektləri;
- COVID-19 kölgəsində kiçik və orta müəssisələr sektorunda auditə dair problemlər.

II. Tövsiyələr:

2.1. Maliyyə hesabatları, mühasibat uçotu və auditə dair

- Ölkədə kölgə iqtisadiyyatının aradan qaldırılması, maliyyə hesabatlılığının təkmilləşdirilməsi, şəffaflığın təmin edilməsi, maliyyə vəsaitlərindən istifadənin səmərəliliyinin gücləndirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi:
  - Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi üzrə normativ-hüquqi bazanın və metodik təminatın təkmilləşdirilməsi;
  - Maliyyə aktivlərinin ədalətli dəyərini müəyyən etmək məqsədi ilə audit sübutlarının toplanması üçün metodiki vəsaitin hazırlanması;
  - Gəlirlər və xərclərə maliyyə nəzarətinin təkmilləşdirilməsinə və səmərəliliyinin artırılmasına dair metodik vəsaitin hazırlanması;
  - Nəzarət prosesində şəffaflığın təmin edilməsi;
  - Məhdud Məsuliyyətli Cəmiyyətlərin illik maliyyə hesabatlarının müvafiq dövlət qurumuna təqdim olunmasının və dərc edilməsinin hüquqi əsasının yaradılması;
  - Dayanıqlı inkişafın vacib şərti hesab olunan qeyri-maliyyə hesabatlarının tətbiqi;
  - Uçot sisteminin şəffaflaşdırılması üçün gəlir və xərclərin uçotunun təmin edilməsi, malların alqı-satqı prosesində sənədləşdirilmənin aparılmasının yeni qaydalarının tətbiqi və digər istiqamətlərdə mühüm islahatların həyata keçirilməsi;
- İdarəetmədə müasir korporativ davranış mədəniyyətinin tətbiqinin genişləndirilməsi və təşviq olunması, yeni çağırışlara cavab verən dövlət qulluğu etikasının hüquqi bazasının təkmilləşdirilməsi;
- Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Müstəqillik standartları ilə birlikdə) tam tətbiqinə nail olunması;
- Auditin əhatəliliyinin artırılması;
- Auditor xidmətinin keyfiyyətinin, auditə ictimai etimadın yüksəldilməsi və onun avtomatlaşdırılması sahəsində mütəmadi tədbirlərin həyata keçirilməsi;
- Enerji auditinin formalaşdırılması istiqamətində aparılan islahatlar prosesinin daha da sürətləndirilməsi;
- Auditin effektivliyi sahəsində beynəlxalq standart və normaların geniş tətbiq edilməsi;
- Kənar audit zamanı daxili nəzarət sisteminin keyfiyyətinin qiymətləndirilməsi praktikasının genişləndirilməsi;
- Müştərinin yüksək risklə bağlı əsas fəaliyyət sahələrini və təsərrüfat əməliyyatlarını müəyyənləşdirməklə auditor yoxlamasının aparılması;

- Auditor praktikasında koqnitiv texnologiyalardan istifadənin genişləndirilməsi;
- İnteqrə olunmuş hesabatlılığın aparılmasının və onun auditinin qanunvericiliklə təsbit olunması;
- Auditorların “hybrid” formada çalışmalarının və texnologiyalardan daha çox istifadə etmələrinin və dünyada baş verən dəyişikliklərə daha güclü reaksiya vermələrinin təmin olunması;
- Audit sahəsində qabaqcıl xarici təcrübənin daha geniş tətbiqi;
- Audit zamanı “Kölgə iqtisadiyyatı”nın məhdudlaşmasına, əmtəəsiz əməliyyatların qarşısının alınması və ona nəzarətin gücləndirilməsinə yönəlmiş qanunvericilik və inzibatçılıq səviyyəsində geniş tədbirlərin həyata keçirilməsi;
- Yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsi və Beynəlxalq Audit Standartları ilə harmonizasiyasının təmin olunması.

2.2. Rəqəmsal iqtisadiyyata dair

- Rəqəmsal iqtisadiyyat şəraitində uçot sferasının iqtisadiyyatın digər bölmələri ilə fasiləsiz qarşılıqlı əlaqədə olması prinsipinin həyata keçirilməsi (marketinq, menecment, maliyyə, statistika, informasiya təhlükəsizliyi və s.);
- Rəqəmsal iqtisadiyyat şəraitində maliyyə ili ərzində fasiləsiz monitorinqin həyata keçirilməsi;
- Rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində şəffaflığın artırılması;
- Audit sahəsində innovativliyin yüksəldilməsi, rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi və auditdə əsas texnologiya kimi dronların, sensor texnologiyalarının, bulud texnologiyalarının və ağıllı müqavilələrin tətbiq edilməsi;
- Rəqəmsal iqtisadiyyat şəraitində auditin informasiya təminatının genişləndirməsi;
- Rəqəmsal iqtisadiyyat şəraitində nəzarətin aparılmasına dair metodik bazanın hazırlanması;
- İqtisadiyyatın rəqəmsallaşmasının audit sahəsindəki fəaliyyətə təsirini nəzərə alaraq rəqəmsal iqtisadiyyat şəraitində vahid uçot, audit və analiz konsepsiyasının işlənilməsi (inteqrə olunmuş hesabatın uçot sferasına daxil edilməklə);
- İnnovasiyada auditin tətbiqi istiqamətləri üzrə proqram və prosedurların hazırlanması;
- Elektron audit sistemi vasitəsilə məsafədən əməliyyatların real vaxt rejimində izlənə bilinməsinin tətbiq edilməsi;
- Dövlət nəzarəti ilə qeyri-dövlət nəzarəti, o cümlədən audit arasında qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsi;
- Nəzarət sahəsində qanunvericiliyə tam əməl olunmasının təmin edilməsi;
- Nəzarət sistemində daha təkmil tənzimlənmənin həyata keçirilməsi;
- Daxili audit fəaliyyətinin idarəetmənin bütün sahələrində tətbiqinin təmin edilməsi;

- Təşkilatdaxili idarəetmədə inkişaf, risk meyllərinin təsirinin minimuma endirilməsi barədə tədbirlərin həyata keçirilməsi;
- Nəzarətin keyfiyyətinin yüksəldilməsi və nəzarətin təşkilinin forma və metodlarının beynəlxalq meyarlara uyğunlaşdırılması;
- Daxili auditin həyata keçirilməsində indikativ göstəricilərin müəyyən olunması və idarəetmənin həyata keçirilməsində tətbiqi.

2.3. Sahibkarlıq, korporativ idarəetmə, maliyyə və vergiyə dair

- Dövlət sektoru ilə yanaşı özəl sektorda da şəffaflıq səviyyəsinin ən yüksək standartlara çatdırılması;
- Beynəlxalq təcrübə əsasında kiçik və mikro müəssisələrdə səyyar vergi yoxlamalarının müstəqil auditlə əvəz edilməsinə dair qanunvericiliyə dəyişikliklər edilməsi üzrə təkliflərin işlənib hazırlanması;
- Alış-veriş zamanı rahat və sürətli əməliyyat həyata kecirmək məqsədilə yeni ödəniş sisteminin daha geniş tətbiq edilməsi (barmaq izlərindən istifadə etməklə);
- Onlayn ödənişlərin təhlükəsizliyini və fırıldaqçılıq hallarının qarşısının alınması məqsədilə bank xidmətlərində biometrik ödəniş üsullarından istifadə edilməsi;
- Xidmət və ticarət sahəsində fəaliyyət göstərən mikro və kiçik sahibkarlar tərəfindən gəlir və xərclərin uçotunun qanunvericiliyə uyğun aparılmasının, bəyannamələrin düzgün tərtib edilməsinin təmin edilməsi;
- Sahibkarlara dəstək olmaq məqsədilə uçot və hesabat formalarının daha da sadələşdirilməsi;
- Mikro və kiçik sahibkarlıq subyektlərinin illik dövriyyəsinin və işçilərinin orta illik sayının digər sahibkarlıq subyektlərindən fərqli olaraq az olmasını nəzərə alaraq bu sahədə normativ-hüquqi bazanın bir qədər də sadələşdirilməsi;
- KOB subyektlərinin maliyyə savadlılığının artırılması istiqamətində əhəmiyyətli təlimlərin və fəaliyyətlərin həyata keçirilməsi;
- KOB subyektləri üçün uçot və hesabatlılığın daha da sadələşdirilməsi, başqa sözlə onlar üçün vaxt və maliyyə itkisinə yol vermədən daha səmərəli və əlçatan mexanizmlər haqqında təkliflərin hazırlanması istiqamətində müvafiq qurumlar arasında əməkdaşlığın və koordinasiyalı işlərin həyata keçirilməsi;
- Gəlirin məbləğinin az göstərilməsinin, vergilərin az miqdarda ödənilməsinin, vergi bəyannamələrinin təqdim olunmamasının, vergi ödəyiciləri tərəfindən mövcud vergi qanunvericiliyinin düzgün anlaşılmamasının qarşısının alınması;

- Vergi qanunvericiliyinə edilmiş dəyişikliklər, vergi yükünün və kölgə iqtisadiyyatının miqyasının azaldılmasına yönəldilmiş köklü islahatların həyata keçirilməsində auditorların iştirakının təmin edilməsi;
- ƏDV-yə cəlb olunan dövriyyələrdə, qeyri-neft-qaz sektorunun dövriyyələrində, habelə elektron qaimə-fakturalarla rəsmiləşdirilən dövriyyələrində artım dinamikasının sürətləndirilirməsi və bunun ümumi dövriyyədə xüsusi çəkisinin yüksəldilməsi;
- Bazardakı sağlam rəqabət mühitini təmin etmək, qanunsuz və "yalançı" sahibkarların yaratdığı ədalətsiz rəqabət şəraitinin ləğv edilməsi;
- E-audit sisteminin tətbiqinin genişləndirilməsi, riskli ödəyicilərin müəyyən edilməsi, vergi nəzarətinin daha da təkmilləşdirilməsi;
- Mikro və kiçik sahibkarlıq subyektləri tərəfindən vergi inzibatçılığı, vergi hesabatlarının hazırlanması və digər aidiyyəti sahələrdə yol verilən nöqsanların aradan qaldırılması üçün KOBİA və Dövlət Vergi Xidməti tərəfindən birgə layihələrin hazırlanması və tətbiqi.

2.4. Korrupsiya, kölgə iqtisadiyyatı, maliyyə saxtakarlığı və Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə (PL/TMM) və qanunvericiliyin təkmilləşdirilməsinə dair

- Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın və məsuliyyətin yüksəldilməsi, korrupsiyaya qarşı mübarizədə qabaqcıl xarici təcrübədən istifadənin təmin olunması;
- Korrupsiyaya qarşı mübarizədə beynəlxalq təcrübənin təmin olunması;
- İqtisadiyyatın inkişafı, maksimum əlverişli biznes şəraitinin yaradılması və xarici investorlar üçün cəlbedici mühitin formalaşdırılması;
- Mühasibat xidməti təminatçıları üçün çirkli pulların leqallaşdırılması cinayətini bilmək və şübhəli fəaliyyətlər barədə məlumat vermək, habelə qanunvericiliklə tələb olunan digər məlumatların MMO-ya bildirilməsinin təşkili;

- Mühasibatlıq və auditor xidmətləri göstərən şəxslərin monitorinqdə iştirak edən digər şəxslər olaraq PL/TM qarşı mübarizə sahəsində müvafiq standartlara və tələblərə cavab vermələrinin təmin edilməsi;
- Mühasibat və auditor xidmətləri göstərən şəxslər tərəfindən müvafiq qaydada PL/TM qarşı mübarizə üzrə daxili nəzarət sisteminin hazırlanması və həyata keçirməsi;
- Korrupsiya qarşı mübarizənin gücləndiriməsi, maliyyə hesabatlılığında şəffaflığın artırılması, kölgə iqtisadiyyatının azaldılması, maliyyə hesabatlılığının təkmilləşdirilməsi, maliyyə vəsaitlərindən istifadənin səmərəliyinin gücləndirilməsi;
- Kölgə iqtisadiyyatının yaranmasının əsas səbəblərindən biri kimi vergi dərəcələrində müəyyən boşluqların aradan qaldırılması;
- Dövlət Vergi Xidməti və Auditorlar Palatasının PL/TM qarşı mübarizə sahəsində maarifləndirmə və potensialın gücləndirilməsi tədbirlərinin təşkil edilməsi, habelə yoxlamaların intensivləşdirməsi;
- PL/TM qarşı mübarizə kontekstində maliyyə hesabatlılığının etibarlılığının gücləndirilməsi;
- PL/TM qarşı mübarizə sahəsində aparılan milli risk qiymətləndirilməsi və strateji təhlillər nəticəsində mühasibatlıq və auditor xidmətləri üzrə mövcud və potensial risklərin müəyyən edilməsi və onlar nəzərə alınmaqla fəaliyyətin təkmilləşdirilməsi istiqamətində tədbirlərin görülməsi;
- PL/TM qarşı mübarizə sisteminin mövcudluğunun əsas indikatoru olan mühasibatlıq və auditor xidmətləri göstərən şəxslər tərəfindən Maliyyə Monitorinqi Xidmətinə şübhəli əməliyyatlara dair əsaslandırılmış məlumatların göndərilməsinin təmin edilməsi;
- PL/TMM üzrə mütəxəssislərin bilik səviyyəsinin yüksəldilməsi və onlardan yoxlamalar zamanı istifadə edilməsi;
- PL/TM-ə qarşı mübarizəyə qadir unifikasiya edilmiş nəzarət sisteminin və fasiləsiz maliyyə monitorinqinin yaradılması məqsədilə bilikləri, təcrübəni və səyləri birləşdirmək üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın təşkil edilməsi;
- PL/TMM üzrə proqram təminatının tətbiq edilməsi.

2.5. Kadr hazırlığına dair

- Auditor fəaliyyətinin təşkilati-metodiki təminatının təkmilləşdirilməsi məqsədilə “intellektual köməkçilər”in yaradılması üçün rəqəmsal texnologiyaların bakalavriat təhsili sistemində müvafiq ixtisaslı yüksək kvalifikasiyalı mütəxəssislərin hazırlanması;

- Rəqəmsal iqtisadiyyat üçün kadr hazırlığının təmin edilməsi;
- Nəzarət orqanı mütəxəssislərinin saxtakarlığı və dələduzluğu aşkar etmək bacarığının gücləndirilməsi;
- Rəqəmsal iqtisadiyyat və innovasiyaların ixtisas tətbiqi sahəsində nəzarət orqanlarının əməkdaşlarının ixtisas səviyyələrinin yüksəldilməsi;
- Qeyri- maliyyə və inteqrə olunmuş hesabatların auditi üzrə mütəxəssislərin hazırlanması;
- ACCA (İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiyası), ICFM (Professional Maliyyə Meneceri), CİMA (Sertifikatlı İdarəetmə Mühasibləri İnstitutu), DipIFR, CAP və digər yüksək beynəlxalq sertifikatların tətbiqinin genişləndirilməsi.